

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 199 (23.841)

27 oktyabr 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan oktyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib, Türkiyə Prezidentini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşılayıb. Həmin gün Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan açılış mərasimində iştirak ediblər. Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər. Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib. Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar. Daha sonra dövlət başçıları söhbət ediblər. Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın oktyabrın 26-da Zəngilanın Ağalı kəndində rəsmi qarşılanma mərasimi olub. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan ilə təkbətək görüşü olub.

Oktyabrın 26-da dövlət rəsmiləri Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanış olublar. Azərbaycan Respublikasının və Türkiyə Respublikasının prezidentləri oktyabrın 26-da Zəngilan rayonunda “Dost Aqropark”ın, Zəngəzur dəhlizinin-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.



## “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” qızıl nişanı ilə təltif haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq əlaqələrinin inkişafındakı xidmətlərinə görə Mehmet Emin Kiraz **“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”** qızıl nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 26 oktyabr 2021-ci il*

## Bank kreditlərinin muxtar respublikanın iqtisadi inkişafındakı effektivliyi artmaqdadır

İqtisadi inkişafın əsas şərti kimi makroiqtisadi sabitliyin qorunması məqsədilə bank sektoru tərəfindən davamlı olaraq həyata keçirilən tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında real sektora kredit qoyuluşunun artması və sahibkarların maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması nəticəsində bank sektorunun maliyyə dayanıqlığı cari ilin ötən 9 ayı ərzində də uğurla təmin olunub. İqtisadiyyata kredit qoyuluşunda müsbət dinamika qorunub saxlanılıb. Belə ki, ötən dövr ərzində muxtar respublikada verilmiş kreditin həcmi 164 milyon 900 min manata çatdırılıb. Verilmiş kreditlərin 81,9 faizi və ya 135 milyon manatı kommunal, sosial və şəxsi istehlak, 7,9 faizi və ya 13 milyon manatı kənd təsərrüfatı, 5,2 faizi və ya 8,6 milyon manatı sənaye, 2,9 faizi və ya 4,8 milyon manatı ipoteka, 2,1 faizi və ya 3,5 milyon manatı topdan və pərakəndə ticarət, səhiyyə və sosial xidmətlərin inkişafına yönləndirilmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə ən çox artım məhz kənd təsərrüfatı üzrə yönləndirilmiş kreditlərdə olmuşdur. Belə ki, bu sahə üzrə artım 33,7 faiz təşkil etmişdir. Kənd təsərrüfatı üzrə verilmiş kreditlərdə 84,7 faiz payla heyvandarlıq ən yüksək çəkiyə malik olmuş, bu istiqamətdə fəaliyyət göstərən sahibkarlar və ailə təsərrüfatları 11 milyon manatdan çox kredit resursu ilə təmin edilmişdir. Kənd təsərrüfatı yönümlü kreditlər arasında bitkiçilik 9,3 faizlə ikinci yerdə qərarlaşmış, kartofçuluğun inkişafı məqsədilə 346,9 min, bostan-tərəvəz əkinlərinə 344,8 min, taxılçılığa 293,4 min, qarğıdalı əkinlərinə 17,5 min, istixana təsərrüfatının yaradılmasına isə 202,3 min manat kredit verilmişdir. Kənd təsərrüfatının digər sahələrinin inkişafı da diqqətdən kənarda qalmamış, arıçılığın inkişafına 437,9 min, quşçuluğun inkişafına 209,4 min, meyvəçilik, üzümçülük, bağçılıq və tingçiliyin inkişafına 127,2 min, kənd təsərrüfatı məhsullarının emalı məqsədilə isə 15 min manat kredit yönləndirilmişdir.

Ümumilikdə, cari ilin ötən 9 ayında kreditlərin 153,1 milyon manatı bankların öz vəsaiti, 9,4 milyon manatı bank olmayan kredit təşkilatlarının, 1,6 milyon manatı Sahibkarlığın İnkişafı Fondunun, 800 min manatı isə Naxçıvan İpoteka Fondunun vəsaitləri hesabına verilmişdir.

Banklar tərəfindən muxtar respublikanın real sektoruna kredit qoyuluşu bundan sonrakı dövrlərdə də uğurla həyata keçiriləcəkdir.

**Rəşad QULİYEV**
*Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin Kredit təşkilatlarının fəaliyyətinə nəzarət şöbəsinin aparıcı mütəxəssisi*

***Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi, ixracın və investisiyaların təşviqi, yerli məhsullarımızın ixrac coğrafiyasının genişləndirilməsi, iqtisadiyyata xarici investisiyaların cəlb edilməsi istiqamətində sistemli və ardıcıl işlər aparılır. Yerli məhsullarımızın daha çox tanıdılması və satışının artırılmasında xarici ölkələrdə biznes dairələrinin iştirakı ilə keçirilən müxtəlif formatlı işgüzar tədbirlər əhəmiyyətli rola malikdir.***

## Beynəlxalq sərgilər yeni tərəfdaşlar axtarışında səmərəli vasitədir

Bu sahədə sərgilər, işgüzar görüş və müzakirələr əlverişli mexanizm hesab oluna bilər. Belə tədbirlərdə qida, kənd təsərrüfatı, tekstil, tikinti, inşaat, kimya, sənaye və sair sahələr üzrə muxtar respublikada istehsal olunan məhsullar “Made in Azerbaijan” brendi ilə dünyanın müxtəlif ölkələrində ixracatçılara tanıdılır və təşviq edilir. Belə beynəlxalq tədbirlər cari ildə də davam etdirilir. Belə ki, 20-22 oktyabr 2021-ci il tarixlərdə Azərbaycanın sərgi sənayesi üçün mühüm tədbirlərdən biri 1-ci Azərbaycan Beynəlxalq “Qarabağın bərpa, yenidənqurma və inkişafı” (“Rebuild Karabakh”) sərgisidir.




İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesinin effektivliyini artırmaq, bu istiqamətdə özəl-dövlət tərəfdaşlığını möhkəmləndirmək, bölgənin inkişafı üçün ən cəlbedici və səmərəli məhsul, layihə və həlləri nümayiş etdirmək məqsədilə “Rebuild Karabakh” sərgisi “Bakı Ekspo” Mərkəzində keçirilib.

Sərgi regionun inkişafına töhfə verən tikinti, kənd təsərrüfatı, təhlükəsizlik, energetika, telekommunikasiya, səhiyyə, təhsil və digər sahələrin nümayəndələrini bir platformada toplayaraq effektiv əməkdaşlıqların qurulmasına, aktual müzakirələrin aparılmasına və yeni sərmayələrin cəlb edilməsinə təkan verib.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqına daxil olan “Naxçıvan Sement Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Naxçıvan Tikinti Materialları İstehsalat Kompleksi” MMC, “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” MMC-nin nümayəndələri də bəhs olunan beynəlxalq sərgidə iştirak ediblər. Sərgidə ayrılan xüsusi pavilyonda “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqına daxil olan müəssisələr tərəfindən istehsal edilən müxtəlif tikinti məhsulları və broşürlər nümayiş olunub.

Digər bir əhəmiyyətli sərgi 20-23 oktyabr 2021-ci il tarixlərdə İstanbul şəhəri TÜYAP Sərgi Mərkəzində keçirilmiş “26-cı Avrasiya beynəlxalq paketləmə sənayesi sərgisi”dir.

Paketləmə sektorunda son texnologiyaları tətbiq etməklə hazırlanmış yüksəkkeyfiyyətli çeşidlərin sərgilənməsi və xarici bazarlara inteqrasiya olunmaqla satış bazarının artırılması məqsədilə təşkil edilən sərgidə Türkiyənin yerli firmaları daxil olmaqla, Avropa, Asiya, Amerika, Yaxın Şərq, Afrika qitələrini təmsil edən qida sənayesində paketləmə sahəsində fəaliyyət göstərən şirkətlərin məhsulları nümayiş etdirilib.

Tədbirdə muxtar respublikanın iri sahibkarlıq subyektlərindən olan “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin, Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətinin və “Xalaoğlu” süd məhsulları istehsalı müəssisəsinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, cari ilin əvvəlindən Naxçıvan şirkətləri Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilmiş “Mosbuild 2021” beynəlxalq tikinti və inşaat materialları sərgisində və Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunan “Gulfood 2021” beynəlxalq ərzaq sərgisində iştirak edərək 100-dən çox çeşiddə məhsul nümayiş etdiriblər. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi ilə cari ilin ötən dövrü ərzində 8-i onlayn olmaqla keçirilən 21 beynəlxalq tədbirdə 46 sahibkarlıq subyektinin 62 nümayəndəsi uğurla təmsil edilib.

Muxtar respublikada işgüzar mühitin davamlı olaraq yaxşılaşdırılması, sənaye istehsalının inkişaf etdirilməsi, özəl sektorun inkişafı Naxçıvan məhsullarının xarici bazarlara çıxış potensialını daha da artırır, yuxarıda qeyd olunan mexanizmlər isə biznes üçün əlavə imkanlar yaradır.

## “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyəti məhsul istehsalını artırır

*Muxtar respublikamızda daxili bazarı yerli məhsullarla təmin edən müəssisələrdən biri də “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətidir.*

İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahəsidir. Bu gün duz mədəni yeni texnoloji avadanlıqlarla təmin edilmişdir. Gündəlik istehsal gücü 40-45 ton daşduz, 20-25 ton isə üyüdülmüş duz olan “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətində 18 çeşiddə duz istehsal olunur və bu məhsullardan məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir.



Məişətdə istifadə edilən yodlaşdırılmış duz həm 0,5 və 1 kiloqramlıq karton və plastik, həm də 0,2 və 0,5 kiloqramlıq polietilen taralarda, eyni zamanda 25 kiloqramlıq kisələrdə “Duzdağ” əmtəə nişanı ilə satışa çıxarılır.

61 nəfərin işlə təmin olunduğu müəssisənin ixrac potensialı ildən-ilə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl edilir.

2021-ci ilin iyun ayında yeni şaxtanın istifadəyə verilməsi istehsal prosesini daha da təkmilləşdirmişdir. Duzun çıxarılması üçün əvvəlcə mədəndə partlayış işləri aparılır. Partlayışdan əmələ gələn duz parçaları çeşidlənərək istehsal sahəsinə verilir.

Daxili bazarı keyfiyyətli məhsullarla təmin edən müəssisə cari ilin ötən dövrü ərzində 4240 ton daşduz və 2604 ton üyüdülmüş duz istehsal edib. Müəssisə tərəfindən 760 ton daşduz və 2477 ton üyüdülmüş duz satılıb. Keyfiyyət göstəriciləri ilə seçilən Naxçıvan duzunun ölkəmizin digər regionlarında satışı həyata keçirilir. 2021-ci ilin doqquz ayı ərzində Bakı şəhərində və ölkəmizin digər regionlarında 2036 ton, muxtar respublikamızda isə 1201 ton duz satışı həyata keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Bu il oktyabr ayının 13-də Beynəlxalq Qars müqaviləsinin imzalanmasının 100 illiyi tamam olub. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci il 8 fevral tarixli Sərəncam imzalamışdır. Sərəncamda deyilir:* ***"...Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması isə bütün dövrlər üçün aktual və vacibdir".***

*Qars müqaviləsi– 100*

# Naxçıvanın muxtariyyətinin qarantı

Ötən əsrin əvvəllərində Rusiyada baş verən fevral inqilabının qələbəsindən və oktyabr çevrilişindən sonra ucqarlarda da vəziyyət xeyli ağırlaşmışdı. Bu zaman imperiyanın tərkib hissəsi kimi Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da gərgin vəziyyət yaranmışdı. Muxtariyyət ərəfəsində Naxçıvan diyarında baş verən hadisələr, Andranik başda olmaqla erməni quldurlarının törətdikləri milli qırğınlar, bununla əlaqədar olaraq dəhşətli və faciəli şəkil almış ictimai və siyasi vəziyyət Cənubi Qafqaz hüdudları çərçivəsindən kənara çıxaraq beynəlxalq probleme çevrilmişdi.

O zaman Naxçıvan regionunu idarə etmək üçün 1918-ci ilin ortalarında Cəfərqulu xanın başçılığı ilə Naxçıvanın vətənpərvər qüvvələrini, müəllim və ziyalıları birləşdirən Müsəlman Milli Komitəsi yaradılmışdı. Naxçıvanda yaradılan Milli Komitə əhalisi azərbaycanlılardan ibarət olan Mehri, Ordubad, Culfa, Şahbuz, Şərur-Dərələyəz bölgələrini öz himayəsi altına almışdı. Lakin bu ərazi və torpaqlar üzərində "böyük Ermənistan" yaratmaq xəyalı ilə yaşayan ermənilər həmin əraziləri işğal etmək niyyətlərindən biranlıq da olsa əl çəkmək istəmirdilər və indi də bu xülya ilə yaşayırlar. AXC dövründə olduğu kimi, bolşevik hakimiyyəti dövründə də Azərbaycana qarşı iddia olunan ərazi məsələləri davam etdirilirdi ki, bu ərazilər də, əsasən, Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ idi.

1920-ci il iyulun 28-də Naxçıvan sovetləşdi, ertəsi gün – iyulun 29-da Naxçıvan İnqilab Komitəsi təşkil edildi və bu komitə Naxçıvanı "Sovet Sosialist Respublikası" adlandırdı. 1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri Mirzəli bəy Bektaşov (Bektaşi) Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub yazaraq Naxçıvanın Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olduğunu elan etdi və ona birləşməyə hazır olduğunu bildirdi.

29 noyabr 1920-ci ildə Azərbaycan torpaqlarında Ermənistan SSR yaradılmasından və ertəsi gün – noyabrın 30-da N.Nərimanovun verdiyi bəyanatın qəzetlərdə saxtalaşdırılmış şəkildə nəşr edilməsindən sonra ermənilərin Naxçıvana olan iddiaları daha da genişləndi. Bu zaman V.Lenin, İ.Stalin və S.Orcenikidze Naxçıvanın Ermənistana verilməsi ideyasını müdafiə edirdilər. 1920-ci il dekabrın 2-də Gümrüdə Ermənistan hökuməti ilə Türkiyə arasında imzalanmış müqaviləyə görə Naxçıvan, Şərur və Şahtaxtı səsvermə əsasında xüsusi idarəçilik yaradılmalı idi və Ermənistan onun işinə qarışmamağı öz öhdəsinə götürürdü. Ermənistan sovetləşdikdən sonra sovet rəhbərlərinin anti-Azərbaycan siyasəti nəticəsində Zəngəzur ərazisinin böyük bir hissəsi Ermənistan SSR-ə verildi. Bu tarixi Azərbaycan torpaqlarının hesabına Ermənistan SSR Xalq Komissarları Sovetinin 20 iyul 1921-ci il tarixli Qərarı ilə Ermənistan SSR-in tərkibində sayca 9-cu olan Zəngəzur qəzası yaradıldı. Zəngəzurun Ermənistana verilməsilə Naxçıvan bölgəsi Azərbaycanın əsas hissəsindən ayrı salındı, nəticədə, onun muxtariyyəti məsələsi gündəliyə gəldi. Bu məsələlərdən bəhs edən ulu öndər Heydər Əliyev qeyd edirdi ki, ***"Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də, Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".***

Sovet rəhbərlərinin Azərbaycana qarşı bu cür mənfi münasibətinə və N.Nərimanovun Naxçıvanla bağlı 1 dekabr 1920-ci il tarixli bəyanatına görə dekabrın 5-də Naxçıvan əhalisinin etirazları başlandı. Naxçıvanda vəziyyət kəskinləşdiyinə görə respublika rəhbərliyi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. Naxçıvanın muxtariyyət statusu qazanmasında və daşnak təcavüzünə qarşı əhalinin təşkilatlanmasında B.Şahtaxtinski mühüm rol oynadı. Belə ki, Behbud ağa Şahtaxtinski Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi məktublarda və teleqramlarda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, həmin mahalların milli tərkibi və coğrafiyasına dair geniş arayışlar və Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdir.

Ermənilər öz iddialarından əl çəkmədikləri üçün Naxçıvan məsələsi ilə əlaqədar əhalinin fikrini öyrənmək məqsədilə Behbud ağa Şahtaxtinskinin təşəbbüsü ilə 1921-ci ilin əvvəllərində Naxçıvanda "Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilmiş rəy sorğusunda (referendumda) bölgə əhalisinin 90 faizdən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi".

Naxçıvan məsələsi Türkiyə və Rusiya arasında Moskvada keçirilən görüşlərdə də qızğın müzakirə obyekti olmuşdur. Türk heyəti 2 dekabr 1920-ci il tarixli Gümrü müqaviləsinin qüvvədə olduğunu müdafiə edərkən rus nümayəndələri bu anlaşmanı, dolayısı ilə Türkiyənin Naxçıvan üzərində himayə haqqı olduğunu qəbul etmirdilər. 9 mart tarixli görüşlərdə Naxçıvanın muxtar statusa sahib olması və başqa bir dövlətə verilməməsi şərti ilə himayəsinin Azərbaycana verilməsi qərarlaşdırılan, digər məsələləri də özündə ehtiva edən Moskva müqaviləsi 16 mart 1921-ci ildə imzalanmışdı. Türkiyə nümayəndə heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilməsə də, regionun Azərbaycan türklərinin əlində qalması təmin edilmiş və Naxçıvan əhalisi bir daha soyqırımına uğrayacağı halda Türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdi.

Beləliklə, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış 16 maddə və 2 əlavədən ibarət Moskva müqaviləsində təsbit edildi. Naxçıvan bölgəsinin Azərbaycan Respublikasının himayəsi altında və həmin vilayətin Azərbaycan tərəfindən heç bir üçüncü dövlətə güzəşt edilməməsi şərti ilə muxtar ərazi təşkil etməsi müqavilənin üçüncü maddəsində razılaşdırılmışdı. Bu maddə Naxçıvanın taleyinin həll edilməsində tarixi əhəmiyyətə malik oldu. Bu müqavilə, eyni zamanda Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri də həll etdi.

Naxçıvanın ərazi məsələsinin müəyyənləşdirilməsi və onun muxtariyyət statusu əldə etməsində Qars müqaviləsinin rolu danılmazdır. Naxçıvanın ərazi bütövlüyünün qorunmasında, onun dövlətçilik mövcudiyyətinin qorunmasında müstəsna rolu olan Qars müqaviləsi çox ağır bir şəraitdə bağlanmışdır.

1921-ci il sentyabrın 26-da başlayan Qars konfransı oktyabrın 13-də dostluq haqqında bir tərəfdən Azərbaycan Sovet Sosialist Respublikası, Ermənistan Sovet Sosialist Respublikası və Gürcüstan Sovet Sosialist Respublikası, digər tərəfdən Türkiyə Böyük Millət Məclisi Hökuməti arasında Rusiya Sovet Federativ Sosialist Respublikasının iştirakı ilə bağlanmış müqavilə ilə başa çatdı. Tərəflər Dostluq Müqaviləsi imzalamaq məqsədilə danışıqlara başlamağı qərara aldılar. Bu məqsədlə Türkiyə Böyük Millət Məclisi Hökuməti Böyük Millət Məclisində Ədirnə millət vəkili və Şərq Cəbhəsinin komandanı Kazım Qarabəkir Paşanı, Böyük Millət Məclisində Burdur millət vəkili Vəli bəyi, İctimai işlər statskatibinin keçmiş müavini Mutar bəyi və Türkiyənin Azərbaycandakı səlahiyyətli nümayəndəsi Məmduh Şövkət bəyi, Azərbaycan Sovet Sosialist Respublikası Hökuməti Dövlət Nəzarəti Xalq Komissarı Behbud ağa Şahtaxtinskini, Ermənistan Sovet Sosialist Respublikası Hökuməti Xarici İşlər üzrə Xalq Komissarı Əsgənaz Mravyanı və Daxili İşlər üzrə Xalq Komissarı Poqos Makinzyanı, Gürcüstan Sovet Sosialist Respublikası Hökuməti Hərbi və Dəniz İşləri üzrə Xalq Komissarı Şalva Eliavanı və Xarici İşlər və Maliyyə İşləri üzrə Xalq Komissarı Aleksandr Svanidzeni, Rusiya Sovet Federativ Sosialist Respublikası Hökuməti Latviyadakı nümayəndə Yakov Qanetskini səlahiyyətli nümayəndə təyin etdilər. Müvəkkillər lazımi və qanuni formada olan səlahiyyətlər mübadiləsindən sonra razılığa gəldilər.

Müqavilə Rusiya imperiyasının keçmiş İrəvan quberniyasının Şərur-Dərələyəz və Naxçıvan qəzalarından ibarət, Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-in yaradılmasını təsbit etdi. Müqavilənin hazırlanması, razılaşdırılması və imzalanması prosesində Naxçıvan ölkəsinin mənafeyini konfransda müdafiə etmək üçün Naxçıvan SSR-in XKS Şərur rayonunun Cəlilkənd sakini Tağı Səfiyevi Qarsa ezam etmişdi.

Müqavilənin müddətsiz imzalanması bölgənin gələcək taleyi üçün də böyük əhəmiyyət kəsb etmişdir. 18 gün davam edən və 6 dəfə işinə fasilə verilən Qars konfransında Moskva müqaviləsinin maddələri bir daha təsdiq edildi. Qars müqaviləsi əvvəlki müqavilənin şərtlərini daha da möhkəmləndirdi. Zorla siyasiləşdirilmiş Naxçıvan məsələsi məhz bu müqavilələrlə əhalinin arzu və tələbinə uyğun olaraq həll edilmişdi. Bu halda Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika kimi qalması imkanı reallaşmışdır.

Müqavilənin ratifikasiya olunmasını nəzərdə tutan sonuncu – 20-ci maddədə ratifikasiya fərmanlarının mübadiləsinin İrəvanda həyata keçirilməsi qeyd olunmuşdu. Qars müqaviləsi onun imzalanmasından sonra dərhal qüvvəyə minən 6, 14, 15, 16, 18 və 19-cu maddələr istisna olmaqla, ratifikasiya fərmanlarının mübadilə olunduğu andan qüvvəyə minməli idi. Müqavilə Azərbaycan SSR MİK tərəfindən 3 mart 1922-ci ildə, Türkiyə Böyük Millət Məclisi tərəfindən 16 mart 1922-ci ildə, Ermənistan SSR MİK tərəfindən 20 mart 1922-ci ildə, Gürcüstan SSR MİK tərəfindən 14 iyun 1922-ci ildə ratifikasiya edilmiş və RSFSR-in iştirakı ilə ratifikasiya fərmanlarının mübadiləsi 11 sentyabr 1922-ci ildə İrəvanda keçirilmiş və həmin vaxtdan qüvvəyə minmişdir.

Xalqın əzmli müqaviməti və dönməz iradəsi, Türkiyənin yardımı, əsl milli siyasətçi və diplomat olan B.Şahtaxtinski kimi siyasi xadimlərin səyləri nəticəsində Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. Naxçıvanın statusunun iki beynəlxalq müqavilədə əks olunması böyük siyasi əhəmiyyət kəsb edən bir faktdır.

Ümummilli lider Heydər Əliyev Naxçıvana rəhbərliyi dövrü, sonralar isə Azərbaycan Respublikasının Prezidenti kimi Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsində mühüm rol oynadı.

1998-ci il yanvar ayının 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında çıxış edən görkəmli siyasi xadim Heydər Əliyev bu məsələyə öz münasibətini bildirərək demişdir: ***"Məlumdur ki, 1920-ci ilin dekabr ayında Ermənistanda Sovet hakimiyyəti qurulan zaman Azərbaycan hökumətinin adından bəyan edilmişdir ki, Zəngəzur və Naxçıvan qəzaları Ermənistanın tərkibinə verilir… Sonra ermənilər həm Naxçıvana, həm də Dağlıq Qarabağa çox iddia etdilər. Məhz buna görə də Naxçıvanın Azərbaycanın tərkibində olması üçün 1921-ci ildə referendum keçirildi və Naxçıvan əhalisinin 90 faizi Naxçıvanın Azərbaycanın tərkibində olmasına səs verdi… Fikirləşmək lazımdır, nə üçün Naxçıvanın statusu beynəlxalq müqavilələrlə müəyyən olunubdur? Çünki o vaxtlar Naxçıvana göz dikənlər çox idi".***

Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyevin 1999-cu il fevralın 4-də "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi" haqqında imzaladığı Fərmanda deyilir: *"Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsində təsbit edildi. Naxçıvanın statusunun iki beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir".*

1999-cu ilin oktyabr ayında Naxçıvanda keçirilən yubiley tədbirləri həm Qars müqaviləsinin ləğvi ilə bağlı iddialarla çıxış edən Ermənistan dövlətinin rəhbərlərinə Azərbaycanın rəsmi mövqeyinin nümayişi kimi, həm də Naxçıvanın muxtariyyət statusunun əhəmiyyətini sübut edən vacib fakt kimi qiymətləndirilə bilər.

Müəyyən dövrlərdə Qars müqaviləsinin ləğv olunmasına lüzumsuz cəhdlər edilmişdir. II Dünya müharibəsindən sonra SSRİ Qars müqaviləsinin ləğv olunmasına və Türkiyəyə verilmiş ərazilərin geri qaytarılmasına çalışırdı. 2016-cı ildə bəzi rus deputatların müqavilənin ləğvi ilə bağlı tələbləri müxtəlif kütləvi informasiya vasitələrində gündəmə gəlmişdir. Əsası olmayan bu uğursuz cəhdlər tam iflasa uğramışdır.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası çox çətinliklərlə qarşılaşdı və erməni hücumları ilə üzləşdi. Naxçıvan Muxtar Respublikası mövcudluğu, bugünkü yaşayışı və nicatı üçün 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin burada yaşayıb işləməsinə, siyasi fəaliyyət göstərməsinə borcludur. Həmin illərdə muxtar respublika ümummilli liderin rəhbərliyi ilə qorunmuş və inkişafı təmin edilmişdir. 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən cənab Vasif Talıbov Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olduğunu siyasi fəaliyyəti ilə sübut etdi. Ali Məclis Sədrinin rəhbərliyi ilə bölgədə mövcud olan problemlərin həllinə başlandı. İqtisadiyyatın dirçəlməsinə, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına xüsusi fikir verildi. Muxtar respublikanın xarici əlaqələri xeyli artdı. Yeni iş yerləri yaradıldı. Naxçıvan Muxtar Respublikasında irimiqyaslı abadlıq, tikinti-quruculuq və bərpa işləri genişləndi. Bütün təsərrüfat sahələrinin, o cümlədən kənd təsərrüfatı və sənayenin inkişaf etdirildiyi Naxçıvan Muxtar Respublikasında rayon mərkəzləri və kəndlər tamamilə yenidən quruldu. Xalqın milli və mənəvi sərvətlərinin, böyük tarixi dəyərə malik abidələrin tədqiqi, mühafizəsi və bərpası sahəsində bir sıra mühüm dövlət qərarları qəbul edildi, onların qorunub saxlanması işində kompleks tədbirlər həyata keçirildi.

Bu gün inkişaf dövrünü yaşayan Naxçıvan muxtariyyət statusunun qarantı kimi Qars müqaviləsinin 100-cü ildönümünü qürur və fəxrlə qeyd edir. Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidentinin dediyi kimi: ***"Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir".***

Qars müqaviləsi Şərq cəbhəsində təhlükəsizliyin təmin edilməsində son və mühüm mərhələ olmuşdur. Bu müqavilə, əslində, 16 mart 1921-ci ildə imzalanan Moskva anlaşmasının yenidən təsdiqi idi. Fərq isə ondan ibarət idi ki, bu anlaşmanı sovetləşmiş Qafqaz ölkələri imzalamışdır. Qars müqaviləsi ilə Şərq sərhədimiz bu üç ölkə tərəfindən də təsdiq edilmiş və ziddiyyətli məsələlər aradan qaldırılmışdır. Bu tarixi müqavilənin imzalanmasından 100 il sonra məhz Ali Baş Komandan, Prezident cənab İlham Əliyev 15 iyun 2021-ci il tarixli Şuşa Bəyannaməsində Azərbaycanın Qars müqaviləsinə sadiqliyini təsdiq etməklə Qafqazda və dünyada ədalətli lider dövlətin, regionda sülhün və sabitliyin əsas etibarlı qarantının məhz Türkiyə olduğunu bir daha nümayiş etdirmiş oldu. Tarixi Qars müqaviləsinin hüquqi varisi kimi 100 il sonra imzalanan Şuşa Bəyannaməsi nəinki Azərbaycan-Türkiyə birliyini, qardaşlığını, əməkdaşlığını daha da möhkəmləndirəcək, hətta iki ölkənin birgə müdafiə olunmasını, bir-birini qorumasını və hərtərəfli dəstəkləməsini təmin edəcəkdir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamına əsasən bu il müqavilənin 100 illiyi muxtar respublikamızda geniş qeyd edilir. İnanırıq ki, bu Sərəncamın işığında Qars müqaviləsinin tarixi yenidən və daha ciddi şəkildə araşdırılacaq, bu tarixi sənədlə Naxçıvanın muxtariyyət statusunun təsbiti və erməni işğalından qurtuluşu məsələlərinə bu günün prizmasından baxaraq daha dəqiq qiymət veriləcəkdir.*

**Yaşar RƏHİMOV**
***AMEA Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru***

***Özünün zəngin mədəniyyəti, adət və ənənələri ilə daim xarici ölkə vətəndaşlarının daim diqqət mərkəzində olan Azərbaycan son illərdə dünyada artan siyasi nüfuzu, iqtisadi dayanıqlığı, həmçinin ən əsas cəhət kimi təhlükəsiz region statusu ilə əcnəbi vətəndaşların diqqətini daha çox cəlb etməyə başlayıb. Bunu illər üzrə Azərbaycana gələn turist sayının artan templə müşahidə edilən statistik trayektoriyası da təsdiq edir. Bu isə özlüyündə ölkəmizdə həyata keçirilən bir çox sahələrdə olduğu kimi, təhsil islahatlarında da özünü göstərir. Bunun nəticəsi kimi hər il xarici ölkələrdən Azərbaycanda təhsil almaq üçün müraciət edənlərin sayı artır.***

*Yeni nəşrlər*

## Əcnəbi tələbələrə Azərbaycan dilini öyrədən ilk nümunə,

### *yaxud "Əcnəbilər üçün Azərbaycan dili dərsliyi" haqqında qeydlər*




Təkcə Azərbaycanda deyil, yaxın regionda da nüfuzlu ali təhsil müəssisələrindən biri kimi tanınan Naxçıvan Dövlət Universitetində də əcnəbi tələbələrin ildən-ilə artması müşahidə olunur ki, bu da özlüyündə xarici dilləri bilən bacarıqlı gənc kadrlara daha çox ehtiyac duyulması zərurətini ortaya çıxarır. Eyni zamanda bu sahədə təkcə muxtar respublikada deyil, ümumiyyətlə, ölkəmizdə dərs vəsaitlərinin yetərli olub-olmadığı sualını da doğurur.

Bu günlərdə yenicə çapdan çıxmış bir dərslik istər əcnəbi tələbələrə Azərbaycan dilini öyrətməyi qarşısına məqsəd qoyan müəllimlərə kömək, istərsə də bu sahədəki boşluğu doldurmağa hesablanmış addım kimi təqdirəlayiqdir. Belə ki, Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimi Nicat Yaqubov və həmin universitetin İngilis dili və tərcümə kafedrasının dissertantı Rəcəb Cəfərli tərəfindən hazırlanan, tərtib edilərək nəşr olunan "Əcnəbilər üçün Azərbaycan dili dərsliyi" yuxarıda qeyd etdiyim boşluğun doldurulması istiqamətində ilk addım kimi xüsusi əhəmiyyətə malikdir. Bu günədək Azərbaycanda əcnəbi tələbələr üçün bu cür əhatəli ciddi bir nəşrin hazırlanması hər iki müəllifi ortaq fikir ətrafında birləşdirmiş və nəticədə də, maraqlı bir dərslik araya-ərsəyə gəlmişdir.

Digər ölkələrdən Azərbaycana oxumaq üçün gəlmiş tələbələrin hazırlığı üçün nəzərdə tutulmuş dərslik Naxçıvan Dövlət Universiteti Elmi Şurasının qərarı ilə çapa tövsiyə olunmuşdur. Filologiya elmləri doktoru, professor Sədaqət Həsənovanın elmi redaktorluğundan keçən dərsliyin rəyçiləri filologiya elmləri doktoru, professor Akif İmanlı və filologiya üzrə fəlsəfə doktoru, dosent Qənirə Əsgərovadır.

Əcnəbi tələbələrin Azərbaycan dilini müasir tələblərə uyğun şəkildə öyrənməsi məqsədilə hazırlanan dərslikdə nəzəri və praktik məsələlər qarşılıqlı şəkildə sistemləşdirilmiş, yeni vəsaitlərdən geniş şəkildə istifadə olunmuşdur. Yeni nəşrin ortaya çıxması zərurətini müəlliflər kitabın girişində yazdıqları çox qısa ön sözdə də konkret olaraq qeyd ediblər. Həmmüəlliflərin fikrincə, Azərbaycan dilini xarici dil olaraq öyrənmək istəyən əcnəbilər üçün dərslik, dərs vəsaiti və ya bu kimi tədris materiallarının olmaması öyrənmə prosesini çətinləşdirir. Onlar ehtiyacı nəzərə alaraq Naxçıvan Dövlət Universitetinin dəstəyi ilə əcnəbilərin Azərbaycan dilini öyrənməsi üçün dərslik hazırlamaq qərarına gəlmişlər. Həmmüəlliflər onu da qeyd edirlər ki, dərslik xarici dil kimi Azərbaycan dilinin öyrənilməsini nəzərdə tutaraq müasir dövrümüzün inkişafına uyğun ən yeni metodlarla hazırlanmışdır.

Naxçıvan Dövlət Universitetində əcnəbi tələbələrə dərs deyən bir müəllim kimi haqqında bəhs etdiyim yeni nəşri diqqətlə nəzərdən keçirdim. Beş bölmədən və 29 yarımbaşlıqdan ibarət olan dərslikdə tədris metodlarının ən müasir formalarından istifadə edildiyini görmək çətin deyil. Təqdirolunası məqamlardan biri də budur ki, təməl səviyyədə hazırlanmış kitabın növbəti yüksək mərhələləri əhatə edən nəşrlərinin də hazırlanması nəzərdə tutulur. Beləliklə, əcnəbi tələbələr xarici dil kimi Azərbaycan dilini öyrənərkən asandan çətinə doğru artan səviyyələrdə tədris nəşrləri ilə təmin olunacaqlar. Onu da vurğulayım ki, dərsliyin "iş dəftəri"nin də labüdlüyünü bildirdikdə, müəlliflər hazırda həmin nəşrin üzərində işlədiklərini və qarşıdakı aylarda onu da çap etdirəcəklərini bildirdilər. Beləliklə, Azərbaycan ali təhsil sistemində əcnəbi tələbələrin hazırlıq kursunda oxuyanlar üçün həllivacib bir problemin də aradan qalxacağını qətiyyətlə deyə bilərik.

"Salam", "Harada?", "Nə edirsən?", "Mənim həyatım", "Zaman, ətraf mühit və biz" bölmələrinin hər biri nəinki tələbələrin, eləcə də ölkəyə yeni gələn əcnəbi vətəndaşın qarşılaşdığı təməl ünsiyyət ehtiyaclarını, maraq dairələrini, tələbat meyarlarını özündə cəmləyir ki, bununla da müəlliflərin qarşılarına qoyduqları ilkin hədəfə nail olduqlarını əminliklə söyləmək mümkündür.

Dərsliyin ən böyük öyrədici özəlliyi də, fikrimizcə, onun, sadəcə, mətndən ibarət olmaması xüsusiyyətidir. Rəngli və illüstrativ şəkillərlə fərqli dizayn xarakteristikasını da əlavə etsək, dilimizin əcnəbilərə dünya standartlarında öyrədilməsinə böyük ölçüdə kömək edəcək nəşrin varlığından əminliklə danışmaq olar. Eyni zamanda söz ehtiyatı öyrədiciliyinin də dərslikdə əsas götürüldüyünü müşahidə edirik.

"Qrammatika", "Çalışma", "Danışıq", "Yazma", "Nələr öyrəndik?" kimi dərsdaxili hissələrdə göstərilən ardıcıllıq üzrə dilimizin öyrədilməsi prosesi dərsliyin əsas məziyyəti kimi vurğulana bilər.

Mən, xüsusilə şəkillər üzərində dayanmaq istərdim. Müəlliflərin geniş seçim imkanları olmasına baxmayaraq, onlar asana qaçaraq tələm-tələsik iş ortaya qoymayıblar. Müəyyən mənada, yorucu əziyyətə qatlaşaraq dünya illüstrativ dərslik modelini əsas götürüblər. Qərb və Şərq mədəniyyətlərini özündə ehtiva edən fotolarla yanaşı, ölkəmizin simvoluna çevrilən məşhur tarixi və təbiət abidələri də məqsədli şəkildə dərslikdə öz əksini tapıb. Eyni zamanda dərsliyin muxtar respublika təhsil sisteminin yetirmələri və burada oxuyan, çalışan müəllimlər tərəfindən hazırlanması da bəzi mətn və fotoşəkillərdə hiss olunur. Belə ki, ölkəmizin həm iqtisadi, həm də bir çox sahələrdə inkişaf etmiş diyarı kimi muxtar respublikanın təbliğini nəzərdə tutan məqamlar da diqqətdən yayınmır. Dərsliyin Naxçıvan Dövlət Universiteti tərəfindən ölkəmizin ali təhsil müəssisələrində təhsil alacaq əcnəbilər üçün hazırlandığını nəzərə alsaq, bu məqamı da təbii qarşılamalıyıq. Lakin qeyd olunan cəhətlər dərsliyin muxtar respublika ilə məhdudlaşdırılmasını əsaslandırmır. Çünki kitabda yer alan istər mətn, istərsə də fotolarda Azərbaycanın paytaxtı Bakının da tanıdılması öz əksini tapıb.

Ümumilikdə, götürdükdə əcnəbi tələbələr bu dərslik vasitəsilə həm ölkəmiz, həm muxtar respublikamız, həm də milli-mənəvi dəyərlərimiz, xüsusilə bayramlarımız, milli valyutamız, ən əsası isə əlifbamız və dilimiz haqqında ətraflı məlumat əldə edəcək, dərsliyi tam mənimsəyəcəkləri halda isə Azərbaycan dilində sərbəst, rahat danışaraq öz fikirlərini ifadə etmə imkanı qazanacaqlar.

"Əcnəbilər üçün Azərbaycan dili dərsliyi" bu sahədə çalışan müəllimlər üçün də stolüstü vəsait kimi onların köməyinə çatacaq, tədris prosesində işlərini daha da asanlaşdıracaqdır.

*Belə bir nəşrin, maraqlı bir dərsliyin araya-ərsəyə gəlməsi münasibətilə ilk olaraq hər iki müəllifi, həmçinin bu dərslikdən yararlanmaqla əcnəbi tələbələri daha rahat və sistemli şəkildə öyrətməyə nail olacaq müəllimləri, ən əsası isə əcnəbi tələbələri təbrik edirəm. Nəşrin qismən çətinləşdirilmiş növbəti səviyyə olaraq nəzərdə tutulan nəşrlərinin də qısa zamanda çap ediləcək müəllim və tələbələrin ixtiyarına veriləcəyini də qeyd edim. Bu yolda müəlliflərə uğurlar arzulayıram.*

**Elxan YURDOĞLU**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri,***
***Naxçıvan Dövlət Universitetinin Xarici tələbələr üzrə dekanlığının müəllimi, dosent***

## Mövsümə hazırlıqla bağlı seminar-müşavirə olub



"Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı seminar-müşavirə keçirilib.

Tədbirdə publik hüquqi şəxsin Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsinin müdiri Elxan Novruzov çıxış edərək bildirib ki, payız-qış mövsümünə hazırlığı təmin etmək məqsədilə sentyabr ayının 20-dən etibarən avtonəqliyyat vasitələrinin sahibləri avtomobillərinin texniki müayinədən keçirilməsi üçün Avtobus Parkına dəvət edilməsi və eyni zamanda şəhər və rayonlar üzrə texniki baxışın keçirilməsi üçün hazırlıqlara başlanılıb.

"Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsin Nəqliyyatın təşkili və lisenziyalaşdırma sektorunun müdiri Zaur Əliyev çıxışında bildirib ki, ötən dövr ərzində xidmətin keyfiyyətini artırmaq məqsədilə şəhərdaxili marşrutlar üçün yeni iritutumlu avtobuslar gətirilib və əhalinin istifadəsinə verilib. O cümlədən yollara yeni asfalt örtük salınıb, dayanacaqlar yaradılıb və bunlardan səmərəli, düzgün istifadə təmin edilib. Əhalinin təhlükəsiz daşınması məqsədilə də bir sıra yeniliklər yaradılıb. Sərnişinlərin yolları rahat və daha təhlükəsiz keçməsi üçün piyada keçidləri artırılıb, bir sıra yerlərdə 3D formatında piyada keçidləri çəkilərək istifadəyə verilib. Bundan başqa, sərnişinlərin maarifləndirilməsi və onların təhlükəsizliyinin təmin edilməsi məqsədilə şəhərdaxili nəqliyyatda fəaliyyət göstərən avtobuslara piyada keçidlərindən və ictimai nəqliyyatdan düzgün istifadə qaydalarının səsləndirildiyi yaddaş kartları paylanıb.

Sonda suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

## Tələbələrlə görüş



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli sərəncamlarının icrası istiqamətində tədbirlər davam etdirilir. Növbəti belə tədbir Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Sosial iş ixtisasına yeni qəbul edilmiş tələbələrlə görüş olub.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fakültəyə uğurla hamilik etməsindən, tələbələrin ixtisas təcrübəsi qazanmaları üçün hərtərəfli şərait yaradılmasından, nəzəri-təcrübi əhəmiyyətli birgə tədbirlərin həyata keçirilməsindən danışıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxış edərək bildirib ki, ötən müddət ərzində, nazirlik ilə Naxçıvan Dövlət Universiteti arasında işgüzar əlaqələr genişləndirilmiş, müvafiq ixtisas üzrə təhsil alan tələbələrin hər il ənənəvi olaraq nazirlik aparatında və struktur qurumlarında istehsalat təcrübəsi keçməsi təmin edilmişdir. Əsasını Sosial iş ixtisasının tələbələrinin təşkil etdiyi "Sosial könüllülük" layihəsindən də danışan Nicat Babayev qeyd edib ki, artıq bu layihənin dördüncü mərhələsinin seçimlərinə başlanılıb. Nazir fakültəyə yeni qəbul edilmiş tələbələrə uğurlar arzulayıb.

Görüşdə müvafiq ixtisas üzrə məzun olmuş və hazırda nazirliyin strukturunda işləyən dövlət qulluqçusu Nadim Nəcəfov müvafiq sərəncamların tələbələr üçün əhəmiyyətindən danışıb, yaradılan şəraitə görə gənclər adından minnətdarlığını bildirib.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin Sosial iş ixtisasının məzunlarından 9-u əmək fəaliyyətini hazırda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində davam etdirir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universitetinin tərəfdaş olduğu LMQS layihəsinin monitorinqi keçirilib



Azərbaycan Texniki Universitetində Avropa Birliyinin Erasmus+ LMQS "Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və magistri" layihəsi çərçivəsində monitorinq keçirilib. Azərbaycan Milli Erasmus+ Ofisinin direktoru Pərviz Bağırovun rəhbərlik etdiyi monitorinqdə ölkəmizdən olan bütün yerli tərəfdaşlar, Azərbaycan Texniki Universitetinin Biotibbi texnologiya mühəndisliyi ixtisası, İ.M. Seçenov adına Moskva Birinci Tibb Universitetinin Bakı filialı, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi, Nüvə Təbabəti Mərkəzi iştirak edib.

Görüşdə Azərbaycan Texniki Universitetinin professoru Həsən Hüseynov həyata keçirilən işlər barədə danışaraq gələcək perspektivlər haqqında məlumat verib. Milli Erasmus+ Ofisinin monitorinq və təşviqat üzrə əməkdaşı Zəfər Həsənovun layihə ilə bağlı sualları cavablandırılıb.

Xatırladaq ki, layihənin monitorinqində Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsinin Roman-german dilləri kafedrasının baş müəllimi Əzizə Əliyeva və Tibb fakültəsinin dosenti, universitet xəstəxanasının baş həkimi Elmar Rzayev iştirak ediblər. Görüş zamanı yerli tərəfdaşlar arasında layihə ilə bağlı fikir mübadiləsi aparılıb və bəzi məsələlər müzakirə olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## *"Elmi-tədqiqat işlərinin yerinə yetirilməsində arxiv sənədlərinin rolu"* mövzusunda elmi seminar



"Naxçıvan" Universitetində keçirilən seminarı giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq arxiv sənədlərinin əhəmiyyətini və qorunmasının zəruriliyini vurğulayıb. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2020-ci il martın 14-də "Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamın məqsədlərindən biri də arxiv işi, arxivşünaslıq, sənədşünaslıq sahələri üzrə ixtisaslı kadrların hazırlanması üçün elmi müəssisələrlə (təşkilatlarla) qarşılıqlı əməkdaşlığın genişləndirilməsidir. "Naxçıvan" Universiteti olaraq biz bu gün bu əməkdaşlıq üçün ilk addımı ataraq universitetdə belə bir elmi seminar təşkil etdik.

Naxçıvan Şəhər Dövlət Arxivinin müdiri Əbülfəz Məhərrəmov çıxış edərək bildirib ki, arxivlər tarix etibarilə kitabxanalardan sonra yaranmasına baxmayaraq, əsasən, dövlətin öz funksiyalarının həyata keçirilməsi üçün tələb olunan informasiyanın qorunmasına xidmət edib. Bu gün arxivlər xalqın mədəni sərvətlərinin siyahısına daxil edilən sənədli materialların qorunmasını həyata keçirir. Eyni zamanda həm də tarixin müxtəlif dövrlərində baş verən hadisə və faktları təsdiq və sübut etmək imkanına malik rəsmi dövlət orqanlarının aktlarının, idarəçilik sənədlərinin, nadir və qiymətli çap əsərlərinin, əlyazmaların, elmi-tədqiqat materiallarının toplandığı əvəzsiz xəzinədir.

Seminarda universitetin Ümumi tarix kafedrasının müəllimi, tarix elmləri doktoru Xəzər Hüseynov, Pedaqogika və psixologiya kafedrasının dosenti Nəzakət Yusifova müxtəlif mövzularda çıxış ediblər.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

*Odlar yurdu Azərbaycanımızın ən qədim yaşayış məskənlərindən biri olan Naxçıvan coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri ilə turizmin inkişafı üçün əlverişli şərait yaradır. Bu diyarda, yurdumuza əsrlərin, qərinələrin yadigarı olan yüzlərlə təbiət və tarixi abidələr – Möminə xatın, Qarabağlar, Yusif ibn Küseyir, Gülüstan türbələri, bir-birindən zəngin, yaşı minilliklərə dayanan Gəmiqaya, Kilit mağarası, Əlincə qalası, Əshabi-Kəhf, gözoxşayan gözəlliyi ilə təbiətin bütün əlvan çalarlarını özündə əks etdirən Batabat yaylağı, Göy göl, Ağbulaq, Duzdağ və bunun kimi təbiət möcüzələri cəmləşərək analoqu olmayan turizm potensialını özündə yaşadır. Sözügedən təbiət gözəllikləri yurdumuzun hüdudlarından kənarda da minlərlə turistə məhz Naxçıvanın bu füsunkarlığını görmək üçün qucaq açır.*

## Çoxəsrlik tarixə malik olan Naxçıvanımız yaradıcı qələm sahiblərinin, jurnalistlərin ideyalarının işığında…




Bunun nəticəsidir ki, dövlətimiz tərəfindən turizm sektorunun inkişafı istiqamətində bir sıra uğurlu layihələr icra edilməkdədir. Elə ötən günlər ərzində, xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin birgə təşkilatçılığı ilə turizmin inkişafı istiqamətində muxtar respublikamıza, təxminən, 50 nəfərlik bir media-turun təşkil edilməsi qeyd olunan uğurlu layihələrin davamıdır. Media-turun əsas məqsədi diyarımızın turizm potensialını qələm sahiblərinin, media nümayəndələrinin gözü ilə kütləvi informasiya vasitələrində işıqlandırmaq və geniş ictimaiyyətə çatdırmaqdır. Yüksək təşkilatçılığı ilə seçilən media-turun iştirakçıları diyarımızdan zəngin təəssüratlarla ayrıldılar.



***"Baku" İnternet Televiziyasının operatoru Elgün Hümbətov**la həmsöhbət olarkən söylədi ki, Naxçıvan, həqiqətən, zəngin coğrafi mühiti, füsunkar təbiəti ilə bura üz tutan hər bir kəsi özünə heyran qoyur. İlk dəfədir, səfər etməyimə baxmayaraq, heç bir yadlıq və özgəlik hiss etmirəm. Düşünürəm ki, insanların istiqanlı olması, qonaqpərvərliyi bizdə bu cür müsbət təəssüratlar yaradır. Həqiqətən, bu vaxtacan Naxçıvan haqqında eşitdiyim gözəl fikirlərin əyani sübutunu burada olduğum iki gün müddətində daha yaxından gördüm, şahid oldum.

***Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Media və ictimaiyyətlə əlaqələr sektorunun baş məsləhətçisi Gülnar Mustafayeva*** isə media-turu turizmin inkişafı istiqamətində 2020-2023-cü illəri əhatə edən xüsusi proqram çərçivəsində təşkil olunan növbəti layihə kimi yüksək qiymətləndirərək dedi ki, həm bir qonaq kimi burada olan turizm potensialı haqqında ətraflı məlumatlar qazandıq, həm də qədim diyarımız olan Naxçıvanın tarixi ilə yaxından maraqlandıq.

***Azad Azərbaycan Televiziyasının müxbiri Əli Novruzəliyev*** budəfəki səfəri zamanı əldə etdiyi materialların əsasında müxtəlif səpkilərdə, rəngarəng və mövzu dairəsi geniş olacaq reportajlar hazırlayacağını bildirdi. Qeyd etdi ki, Əlincə qalası haqqında yaradıcı düşüncələri tam fərqli olacaq. O, turda iştirak etmiş bütün jurnalist həmkarlarının öz yaradıcılıqlarında burada şahid olduqları gözəllikləri işıqlandıracaqlarına əminliyini bildirdi.

Muxtar respublikamızda iki gün müddətində təşkil olunan media-turun jurnalist həmkarlarımıza qazandırdığı zəngin təəssüratlar onların yaradıcılığında öz əksini taparaq, sosial şəbəkələrdə, mətbuatda və informasiya saytlarında geniş izləyici kütləsi qazanıb. İnamla demək olar ki, Naxçıvanda mövcud olan geniş turizm imkanlarını ictimaiyyətə çatdırmaq məqsədinə nail olunub.

Naxçıvanın çoxəsrlik tarixinin canlı şahidi, məğrurluq və əyilməzliyin simvolu olan Əlincə qalası həmkarımız ***"Kaspi" qəzetinin əməkdaşı Rufik İsmayılov**un reportajının əsas süjet xəttini təşkil edir. Müəllif "Naxçıvanın əyilməzlik simvolu" adlı məqaləsində yazır: "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin birgə təşəbbüsü ilə 21-22 oktyabr tarixlərdə Naxçıvan şəhərinə təşkil edilən media-tur zamanı bu tarixi abidələrin bir qismini görmək, bölgənin turizm potensialı ilə yaxından tanış olmaq imkanımız yarandı. Ən böyük təəssüratı isə Əlincə qalası yaratdı. İlk növbədə, qeyd olunmalıdır ki, Naxçıvandakı abidələrin içərisində qalaların özünəməxsus yeri var. Muxtar respublika qalatipli yaşayış yerləri ilə zəngin diyardır. Bu ərazidə qalaların çoxluğunun başlıca səbəbi Naxçıvanın əlverişli coğrafi mövqeyinin, zəngin təbii sərvətlərinin, şəhər mədəniyyətinin və inkişaf etmiş sənətkarlığının yadelli işğalçıların diqqətini cəlb etməsidir. Mübariz xalqın daş yaddaşı sayılan Əlincəqala da yadellilərə qarşı uzun illər sinə gərən, onlara qarşı mübarizə aparan xalqın sığınacaq, müdafiə məkanı olub".

***"Yeni Müsavat" qəzetinin jurnalisti Xalidə Gəray*** "Dəyişən Naxçıvan, sirli abidələr, daima sərhəd keçmək məcburiyyətində olanlar" başlıqlı məqaləsində tur çərçivəsində yaşadığı hissləri qələmə alaraq yazır: "Əksər həmkarlarım, elə mənim üçün də bu ilk səfər idi. Bu səbəbdən yalnız televiziya ekranlarında, fotolarda gördüyümüz, o torpaqda böyüyüb, ərsəyə gələn insanların dilindən eşitdiyimiz, uzun illər blokada şəraitində qəhrəmancasına yaşayıb, inkişaf edən Naxçıvanı ziyarət etməyi səbirsizliklə gözləyirdik. Həm də ilk dəfə olaraq qədim yurda Ermənistanın üzərindən uçaraq yetişəcəyimizin həyəcanını yaşayırdıq... Bir neçə ilə təəccübləndirəcək dərəcədə sürətlə dəyişən şəhər, təmiz, səliqəli küçələr və qanunlara riayət edən sakinlər..."

***Bloger Kübra Məhərrəmova**nın da "Çalışın, naxçıvanlı dostlarınız çox olsun" başlıqlı məqaləsi zəngin təəssüratların işığında qələmə alınmış yaradıcılıq nümunəsi kimi oxucu kütləsi tərəfindən böyük maraqla qarşılanıb.

*Bəli, əziz oxucularımız. Bəşər sivilizasiyasının mədəniyyət ocağı olan Naxçıvanımız, milli-mənəvi dəyərləri, çoxəsrlik tarixi, zəngin mətbəx nümunələri ilə qədimlik və müasirliyin çiyin-çiyinə addımladığı bir ünvan kimi daim ona üz tutan qonaqların diqqət mərkəzində olub. Elə mövzumuzda da sizə təqdim etdiyimiz müsahibələrdə, qələm sahiblərinin zəngin təəssüratlarının bir yerdə cəm olduğu yaradıcılıq nümunələrində də bunun bir daha şahidi oluruq.*

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Ağbulağın söz təşnəli qonaqları…

***Gərgin iş həftəsindən sonra insana xoş, mənalı, unudulmaz istirahət anları bəxş edən Ağbulaq İstirahət Mərkəzinədir yolumuz. Müasir, geniş, rahat avtobusla Naxçıvanın sirli-sehrli təbiətini izləməkdən zövq alaraq hamar yollarla irəliləyirik üz tutduğumuz ünvana. Yolboyu keçdiyimiz kəndlərdə müşahidə etdiyimiz səliqə-sahman, müasir evlər, inzibati binalar, payız çalarlarıyla insanın qəlbini riqqətə gətirən təbiət mənzərələri könlümüzü oxşayır. Artıq görməyə səbirsizləndiyimiz ünvana – Ağbulaq İstirahət Mərkəzinə yetişirik.***

Avtobusdan enib, Ağbulağın əsrarəngiz təbiətini izləyir, tər-təmiz havasını ciyərlərimizə çəkirik. Buradan baxanda nəinki Ağbulaq dağları, həmçinin Şahbuzun bir çox yüksəklikləri ayaqdəyən, əlçatan görünür. Seyr etməkdən doymadığımız gözəl təbiət mənzərələri, uzandıqca uzanan yollar, topa buludlar və quzeylərdə ağaran bəyaz qar insanın ruhunu dinləndirir. İllərdir ki, bu füsunkar məkan qədim diyarımıza gələn qonaqların ən çox üz tutduqları ünvanlardan birinə çevrilib. Həmçinin hər il burada məktəbliləri və tələbələri bir-birindən maraqlı istirahət günləri gözləyir. Gənclərin "Yay məktəbi" təşkil olunur, onlar arasında müxtəlif intellektual





və idman yarışları keçirilir. Hər həftənin şənbə, bazar günləri isə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə bu mərkəz muxtar respublikada fəaliyyət göstərən dövlət qulluqçularına da qucaq açır. Bu ənənə artıq neçə illərdir ki, davam edir. 23-24 oktyabrda isə Ağbulaq İstirahət Mərkəzinin budəfəki qonaqları "Şərq qapısı" qəzeti, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası, şəhər və rayon qəzetlərinin əməkdaşları idi. İstirahət təəssüratlarını bölüşmək istəyən ürəyidolu həmkarlarımla həmsöhbət olduq.

***"Şərq qapısı" qəzetinin şöbə müdiri Nail Əsgərov:*** "Muxtar respublika yayqış turizminin, sözün həqiqi mənasında, gözü olan Ağbulaqda olduğumuz iki gün müddətində həm asudə vaxtımızı cana məlhəm, ruhun qidası sayılan sərin dağ havasının cövlan etdiyi təbiət qoynunda xoş anlar yaşamaqla keçirdik, həm də yaradıcı kollektivlər olaraq müxtəlif mövzularda fikir mübadilələri apardıq, fəaliyyət sahəmizə uyğun ümumi inkişafa yönələn maraqlı diskussiyalar oldu. Kanatla gəzinti, futbol, voleybol oyunları, eləcə də ağız dadı ilə yediyimiz ləziz mətbəx nümunələri yorğun iş həftəsindən sonra əhvali-ruhiyyəmizin xeyli yüksəlməsinə, başqa sözlə, yeni mövzular üzrə yazılar hazırlamaq, daha da həvəslə çalışmaq üçün bol enerji toplamağımıza imkan verdi. Mərkəzin həyətində azyaşlılar üçün yaradılan əyləncə parkı balacaların da dünyasına rəngarənglik qatdı. Kəndi ekskursiya zamanı hər yerdə hökm sürən təmizlik, səliqə-sahman, eyni zamanda muxtar respublikamızın inkişafından, tərəqqisindən söz açan müstəqillik bəhrələri, payız fəslinə xas əsrarəngiz təbiət mənzərələri zövqümüzü oxşadı, ruhumuza sığal çəkdi. Fikrimcə, yaradıcı bir insan üçün əsl istirahət ruhun dincliyidir, mənəvi zövqdür ki, bu şəraiti bizə yaratdığına görə dövlətimizə minnətdarıq".

***"Arazın səsi" qəzetinin redaktoru Alim Ağayev**in təəssüratlarından: "Bənzərsiz təbiəti, yüksək qonaqpərvərlik mədəniyyəti ilə bura istirahət üçün əlverişli məkandır. Təbiətin zənginliyinə, gözəlliyinə baxmaq, uşaqlarla, ailə ilə bərabər istirahət üçün əvəzolunmazdır. Jurnalist həmkarlarımızla birlikdə burada olduğumuz birinci gün istirahət mərkəzini doyunca gəzdik, xatirə şəkilləri çəkdirdik. Buranın hər qarışında hüzur, rahatlıq var. Axşam yeməyindən sonra isə kəndi gəzməyi qərara aldıq. Hər tərəfdə bərq vuran çoxlu sayda işıqlar bu kiçik kəndi başdan-başa nura qərq etmişdi. Sanki göyün ulduzlu bir parçasına bənzəyirdi. Göydəki ulduzlarla bəhsə girən, dörd bir yanı süd kimi nura qərq edən sirli-sehrli işıqların ağuşunda cənnəti xatırladan kəndin bu cazibəsindən qopmaq olmurdu. Bir sözlə, Ağbulaq İstirahət Mərkəzində olduğumuz iki gündə təmiz hava, təbii qida, yaradılan lazımi infrastruktur nəticəsində mənalı istirahət etdik, təbiət qoynunda xoş anlar keçirdik. Bizim üçün yaradılan bu şəraitə görə təşkilatçılara minnətdarlığımı bildirirəm".

***"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Aysun Məmmədli*** də Ağbulaqla bağlı ilk təəssüratlarını bizimlə paylaşdı. Onun dediklərindən: "İlk dəfədir ki, Ağbulaq İstirahət Mərkəzində oluram. İstirahət üçün əlverişli və ideal məkandır. Buranın gözəl olduğunu eşitmişdim, amma bu gözəlliyin canlı şahidi olmaq, əsrarəngiz təbiətin təmiz havasını udmaq tam başqadır. Hər yer təmiz, yeməklər və xidmətə isə söz ola bilməz. Buradan xoş təəssüratla ayrılıram. Və "yenidən görüşmək ümidi və diləyilə", – deyirəm".

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının əməkdaşı Ruslan Ramazanov:*** "Muxtar respublikada bütün sahələrə xüsusi diqqət və qayğı ilə yanaşılır. Əməyə verilən dəyərin bariz nümunəsi, dövlət qayğısı olaraq muxtar respublikanın dövlət müəssisələrində çalışan işçilərin vaxtlarının səmərəli keçirilməsi məqsədilə Ağbulaq İstirahət Mərkəzində istirahətləri də təşkil edilir. Bu gün biz televiziya və mətbuat sahəsində çalışan əməkdaşlar da Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində istirahət edirik. Bizə yaradılan bu imkanlara görə muxtar respublika rəhbərinə minnətdarlığımızı bildiririk".

***"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşı Abdulla Seyidov*** deyir ki, buranın bənzərsiz təbiətini və onun qoynundakı istirahətin zövqünü canlı olaraq görmək, duymaq möhtəşəmdir. Sağlam həyat üçün təbiətdə olmaq, açıq havada gəzmək, idman etmək lazımdır. Ərazi bütün bunlara imkan verir. İstirahət edərkən aldığım xoş təəssüratlar hesabına, əminəm ki, buraya tez-tez gələcəyəm. Burada istirahət günümüzü şən və əyləncəli keçirdik. Bu günlər bizim üçün əvəzedilməz bir xatirə olaraq qaldı. Bizim üçün bu şəraiti yaradanlara, bu işdə əməyi keçənlərə kollektivimiz adından dərin minnətdarlığımı bildirirəm.

*Beləcə, ikigünlük istirahətimizin sonuna gəlir, hər birimiz xoş təəssüratla ayrılırıq Ağbulaqdan. Nəzərə alsaq ki, qarşıdan qış ayları gəlir, ümidvarıq ki, yeni salınan xizək mərkəzilə də bundan sonra gələn qonaqları daha təmtəraqlı qarşılayacaq Ağbulaq. Günü-gündən gözəlləşən simanla daha çox qonağa qucaq açman diləyilə, salamat qal, Ağbulaq…*

✍ **Gülcamal TAHİROVA**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 895